# Ermənistan silahlı qüvvələrinin Bərdəni raket atəşinə tutması nəticəsində xəsarət almış şəxslərdən biri vəfat edib

Xəbər verildiyi kimi, sentyabrın 27-dən bugünə kimi Ermənistan silahlı qüvvələri tərəfindən dinc əhalinin ağır artilleriyadan atəşə tutulması nəticəsində 405 mülki şəxs yaralanıb, onlardan 43 nəfər ağır vəziyyətdə reanimasiyada stasionar müalicə olunur.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, oktyabrın 28-də Bərdə şəhərinin mərkəzi hissəsinin düşmən tərəfindən raket atəşinə tutulması nəticəsində ağır dərəcəli bədən xəsarətləri almış 1995-ci il təvəllüdlü Paşayev Niftalı Səlim oğlu göstərilmiş tibbi yardımlara baxmayaraq, noyabrın 5-də stasionar qaydada müalicə olunduğu xəstəxanada vəfat edib.

Azərbaycan.- 2020.-6 noyabr.- S.5.